

Miqrasiya səhəsində qanunvericilik bazası
Ölkəyə daxil olma qaydaları
Ölkədə müvəqqəti olma qaydaları
Müvəqqəti yaşama icazəsi
Rusiya Federasiyasına getmək üçün bunları bilmək önəmlidi
Daimi yaşama icazəsi
Əmək fəaliyyəti ilə məşğul olmaq
İnzibati məsuliyyət
Vətəndaşlığın əldə edilməsi

## Rusiya Federasiyası

### Miqrasiya sahəsində qanunvericilik bazası

Rusiya Federasiyasında miqrasiya prosesləri

- "Rusiya Federasiyasından çıxış və Rusiya Federasiyasına giriş qaydası haqqında" 15.08.1996-cı il tarixli 114-ФЗ nömrəli Federal Qanunu;
- "Rusiya Federasiyasında xarici vətəndaşların hüquqi vəziyyəti haqqında" 25.07.2002-ci il tarixli 115-ФЗ nömrəli Federal Qanunu;
- "Rusiya Federasiyasında xarici vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin miqrasiya qeydiyyatı haqqında" 18 iyul 2006-cı il tarixli 109-ФЗ nömrəli Federal Qanunu
- 31 may 2002-ci il tarixli 62-ФЗ saylı "Rusiya Federasiyasının Vətəndaşlığı haqqında" Federal Qanunu ilə müəyyən edilir.

### Ölkəyə daxil olma qaydaları:

"Azərbaycan Respublikası Hökuməti və Rusiya Federasiyası Hökuməti arasında Azərbaycan Respublikası və Rusiya Federasiyası vətəndaşlarının vizasız gediş-gəlişi haqqında 3 iyul 1997-ci ü tarixli Saziş"ə uyğun olaraq Azərbaycan Respublikasının vətəndaşları Rusiya Federasiyasının olma və qeydiyyatla bağlı qüvvədə olan qanunvericiliyinə əməl etməklə Rusiya Federasiyasına vizasız daxil olmaq, çıxmaq, tranzit keçmək və qalmaq hüququna malikdirlər.

### Miqrasiya kartı

Rusiya Federasiyasının dövlət sərhədindən buraxılış məntəqələrindən keçən zaman əcnəbi miqrasiya kartı təqdim etməlidir. **Miqrasiya kartı** blankları xarici ölkələrin vətəndaşlarına Rusiya Federasiyasına daxil olduqda nəqliyyat xidmətləri göstərən təşkilatların (uzun məsafəli qatarların, təyyarələrin, dəniz və çay gəmilərinin xidmət işçiləri və s.) nümayəndələri tərəfindən pulsuz verilir. Miqrasiya kartı rus dilində doldurulur. Pasportda və ya şəxsiyyəti təsdiq edən digər sənəddə göstərilən məlumatlara uyğun olaraq Latın əlifbasının hərfləri ilə doldurulmasına icazə verilir. Miqrasiya kartı iki hissədən ibarətdir - "A" və "B" (giriş və çıxış hissələri). Kartın hər iki hissəsi doldurulmalıdır. Dövlət sərhədindən keçid məntəqəsindən keçərkən miqrasiya kartının "A" hissəsi sərhəd buraxılış məntəqəsi işçilərində qalır, "B" hissəsi əcnəbiyə qaytarılır. Miqrasiya kartının "B" hissəsinin arxa tərəfində sərhəd keçid məntəqəsinin zabitləri tərəfindən ölkəyə girişlə bağlı qeyd qoyulmalıdırlar.

Yaşından asılı olmayaraq hər bir xarici vətəndaş üçün miqrasiya kartı doldurulmalıdır.

Miqrasiya kartının çıxış hissəsi ("B" hissəsi) əcnəbilər tərəfindən Rusiya Federasiyasının ərazisində olduqları bütün müddət ərzində saxlanılır və ölkəni tərk edərkən sərhəd nəzarəti orqanının vəzifəli şəxslərinə təhvil verilir.

Miqrasiya kartının zədələnməsi və ya itirilməsi halında, əcnəbi bu barədə 3 gün ərzində olduğu yer üzrə Rusiya Federasiyasının Daxili İşlər Nazirliyinin Miqrasiya məsələləri üzrə Baş İdarəsinin ərazi bölmələrinə məlumat verməli və zədələnmiş və ya itirilmiş miqrasiya kartının dublikatını almalıdır. Miqrasiya kartının dublikatı pulsuz

verilir. Əcnəbi Rusiya Federasiyasını tərk edərkən miqrasiya kartı olmadan sərhəd buraxılış məntəqəsinə gələrsə, sərhəd nəzarətinin əməkdaşları ondan yeni miqrasiya kartının ("B" hissəsi) doldurulmasını tələb edirlər.

## *Ölkədə qalma müddəti*

Azərbaycan Respublikasının vətəndaşları bir təqvim ili ərzində 90 günə qədər Rusiya Federasiyası ərazisində qala bilərlər.

Azərbaycan Respublikası vətəndaşı Rusiya Federasiyasının dövlət sərhədini keçdiyi tarixdən 7 iş günü ərzində olduğu yer üzrə qeydiyyata alınmalıdır. Olduğu yer üzrə qeydiyyatla (miqrasiya uçotu) bağlı müraciət Azərbaycan Respublikası vətəndaşını qəbul edən tərəf (şəxsə faktiki yaşayış yeri vermiş Rusiya Federasiyası vətəndaşı, adıçəkilən ölkədə daimi yaşayan əcnəbi, hüquqi şəxs, hüquqi şəxsin filialı və ya nümayəndəliyi və s.) və ya Azərbaycan Respublikası vətəndaşının özü tərəfindən edilə bilər.

Eyni zamanda, əcnəbi olduğu yeri dəyişdikdə yenidən qeydiyyatdan keçməlidir. Bunun üçün qəbul edən tərəf əcnəbinin şəxsiyyətini təsdiq edən sənədin və miqrasiya kartının surətlərini, həmçinin əcnəbinin qalacağı yaşayış sahəsindən qəbul edən tərəfin istifadə hüququnun olmasını təsdiq edən sənədin surətini əcnəbinin olduğu yerə gəlməsi barədə bildirişlə birlikdə birbaşa, dövlət və bələdiyyə xidmətlərinin göstərilməsi üçün çoxfunksiyalı mərkəz və ya poçt vasitəsilə Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin ərazi bölmələrinə təqdim edir.

Azərbaycan Respublikası vətəndaşları əmək fəaliyyəti ilə məşğul olmaq məqsədilə Rusiya Federasiyasına səfər edərkən əmək patentinin rəsmiləşdirilməsi üçün ərizə ilə müraciət zamanı (ölkəyə giriş tarixdən 30 təqvim günü ərzində) fotoşəkil çəkdirməli, icbari dövlət daktiloskopik qeydiyyatından və tibbi müayinədən keçməlidirlər.

Digər məqsədlərlə Rusiya Federasiyasına səfər edən və uzun müddət (90 gündən çox) ölkə ərazisində qalmağı planlaşdıran Azərbaycan Respublikası vətəndaşları da ölkəyə giriş tarixindən etibarən 90 təqvim günü ərzində qeyd olunan prosedurlardan (fotoşəkilin çəkilməsi, icbari dövlət daktiloskopik qeydiyyatı və tibbi müayinə) keçməlidirlər. Bu prosedurlardan keçmə yaşama icazəsi üçün sənəd təqdim edilməsi zamanı zəruridir.

### Müvəqqəti olma müddətinin uzadıldığı hallar

"Rusiya Federasiyasında xarici vətəndaşların hüquqi vəziyyəti haqqında" 25.07.2002-ci il tarixli 115-ФЗ nömrəli Federal Qanunu"nun 5-ci maddəsinin 2-ci hissəsinə görə Rusiya Federasiyası ərazisində əcnəbilərin müvəqqəti olma müddəti aşağıdakı hallarda uzadıla bilər:

- *viza tələb olunmayan qaydada Rusiyaya gəlib müvəqqəti yaşamaq üçün icazənin alınması ilə bağlı müraciət etmiş şəxslər – müraciət baxıldığı müddətə qədər;*

- *əcnəbi tərəfindən daimi yaşamaq üçün icazənin alınması ilə bağlı ərizə qəbul edilmişdirsə - ərizənin baxıdığı müddətə qədər;*
- *rus dili ana dili kimi tanınan əcnəbinin Rusiya Federasiyasının vətəndaşlığına qəbul olma imkanı barədə bildirişin verilməsi ilə bağlı ərizə qəbul edildikdə - ərizənin baxıldığı müddətə qədər;*
- *şəxs dövlət qeydiyyatından keçmiş orta ixtisas və ya ali təhsil müəssisəsinə əyani təhsil almaq üçün qəbul olunubsa – təhsil müddətinə qədər.*

Bununla yanaşı, müvəqqəti olma müddəti işəgötürən tərəfindən yüksəksəviyyəli mütəxəssisin, həmçinin təhsil müəssisəsi tərəfindən əcnəbi tələbənin müvəqqəti olma müddətinin uzadılması ilə bağlı aidiyyəti quruma vəsatəti daxil olduğu hallarda da uzadılır.

Yuxarıda qeyd olunan əsaslardan başqa müvəqqəti olma müddəti əcənəbinin Rusiya Federasiyasının ərazisini məcburi dayanma halı *(məsələn, təcili müalicəyə ehtiyac olduqda, yaxın qohumunun ciddi xəstəliyi və s.)* səbəbindən tərk edə bilmədiyi hallarda da uzadılır.

Müvəqqəti olma müddətinin uzadlması üçün əcnəbi həmin müddətin bitməsinə azı ***7 iş günü*** qalmış əsaslandırılmış ərizə, Rusiya ərazisini vaxtında tərk etməsinə mane olan halların mövcudluğunu təsdiq edən sənədlərlə birgə olduğu yer üzrə qeydiyyata alındığı Rusiya Federasiyasının Daxili İşlər Nazirliyinin rayon bölmələrinə müraciət etməlidir.

## Müvəqqəti yaşama icazəsinin verildiyi hallar

Müvəqqəti yaşamaq üçün icazə əcnəbinin daimi yaşamaq üçün icazənin alınmasına qədər Rusiya Federasiyası ərazisində müvəqqəti yaşamaq hüququnu təsdiq edən sənəddir. Müvəqqəti yaşamaq üçün icazə əsasında əcnəbi yalnız Rusiya Federasiyasının ərazisində yaşamaq üçün icazənin verildiyi ərazi vahidində yaşaya bilər. Müvəqqəti yaşamaq üçün icazənin etibarlılıq müddəti 3 ildir və Rusiya Federasiyası qanunvericiliyində onun ***müddətinin uzadılması nəzərdə tutulmamışdır***.

Müvəqqəti yaşamaq üçün icazənin alınması ilə bağlı müraciət Rusiya Federasiyasının Daxili İşlər Nazirliyinin ərazi orqanın miqrasiya məsələləri üzrə bölməsinə və ya Rusiya Federasiyasının əcnəbinin daimi yaşadığı ölkədəki diplomatik nümayəndəliyinə və ya konsulluğuna təqdim edilə bilər. Vizasız qaydada Rusiya Federasiyasına gələn əcnəbilərin müraciətlərinə baxılma müddəti ərizənin qəbul edildiyi tarixdən 60 gün müddətinədir.

"Rusiya Federasiyasında xarici vətəndaşların hüquqi vəziyyəti haqqında" 25.07.2002-ci il tarixli 115-ФЗ nömrəli Federal Qanunu"nun 6-cı maddəsinə əsasən Rusiya Federasiyası Hökuməti tərəfindən təsdiq edilmiş kvota daxilində əcnəbilərə müvəqqəti yaşamaq üçün icazə verilə bilər. Kvota hər il Hökumət tərəfindən Rusiya Federasiyasının hər bir subyekti üçün təsdiqlənir. Kvota dolduğu halda müvəqqəti yaşamaq üçün icazənin verilməsi üçün müraciətlər qəbul edilmir.

Müvafiq regionda müvəqqəti yaşamaq üçün icazənin verilməsi ilə bağlı növbəyə dayanmaq üçün əcnəbi Rusiya Federasiyasının Daxili İşlər Nazirliyi və ya onun həmin

regiondakı nümayəndəliyinə tələb olunan bütün sənədləri toplayaraq ərizə təqdim etməlidir. Ərizənin təqdim edilməsi əcnəbiyə müvəqqəti yaşamaq üçün icazənin veriləcəyinə əsas verməsə də, müvafiq orqan tərəfindən ərizənin qəbulu həmin region üzrə kvotanın dolmadığını bildirir. Bu səbəbdən müvəqqəti yaşamaq üçün icazənin alınması ilə bağlı sənədləri mümkün qədər tez təqdim etmək lazımdır.

Bununla yanaşı, Federal Qanunla kvota nəzərə alınmadan müvəqqəti yaşamaq üçün icazənin verilə bildiyi əcnəbilərin kateqoriyası müəyyən edilmişdir.

Belə ki, kvota nəzərə alınmadan müvəqqəti yaşamaq üçün icazəninin verildiyi əcnəbilər aşağıdakılardır:

- *həmin Federal Qanunun 8-ci maddəsinin 2-ci bəndində göstərilən və müvəqqəti yaşamaq üçün icazə almadan daimi yaşamaq üçün icazə verilən şəxslər;*
- *valideyni (övladlığa götürəni, qəyyumu, himayəçisi) xarici vətəndaş olan və Rusiya Federasiyası ərazisində müvəqqəti yaşayan 18 yaşına çatmayan şəxslər - valideyninin (övladlığa götürəninin, qəyyumunun, himayəçisinin) müvəqqəti yaşamaq üçün icazəsinin müddətinə;*
- *xarici vətəndaş olan valideyni (övladlığa götürəni, qəyyumu, himayəçisi) ilə birlikdə müvəqqəti yaşamaq üçün icazə alan 18 yaşına çatmayan şəxslər;*
- *Rusiya Federasiyası ərazisində yaşayış yeri olan Rusiya Federasiyası vətəndaşı ilə nigahda olanlar - Rusiya Federasiyası vətəndaşı olan ərinin və ya arvadının yaşayış yerinin yerləşdiyi Rusiya Federasiyasının ərazi vahidində;*
- *xarici vətəndaş olan valideyni (övladlığa götürəni, qəyyumu, himayəçisi) ilə birlikdə müvəqqəti yaşamaq üçün icazə alan və xarici dövlətin qanunvericiliyi ilə əmək qabiliyyəti olmayan və ya məhdud əmək qabiliyyətli kimi tanınan 18 yaşına çatmayan şəxslər;*
- *valideyni (övladlığa götürəni, qəyyumu, himayəçisi) xarici vətəndaş olan və Rusiya Federasiyası ərazisində müvəqqəti yaşayan xarici dövlətin qanunvericiliyi ilə əmək qabiliyyəti olmayan və ya məhdud əmək qabiliyyətli kimi tanınan 18 yaşına çatanlar - valideyninin (övladlığa götürəninin, qəyyumunun, himayəçisinin) müvəqqəti yaşamaq üçün icazəsinin müddətinə;*
- *Rusiya Federasiyasına Rusiya Federasiyası Hökuməti tərəfindən müəyyən edilən miqdarda investisiya qoyanlar;*
- *hərbi xidmətə qəbul edilənlər – hərbi xidmətdə olduqları müddətə;*
- *xaricdə yaşayan soydaşların Rusiya Federasiyasına könüllü köçürülməsinə yardım Dövlət Proqramının iştirakçısı olanlar və onlarla birlikdə Rusiya Federasiyasına köçən ailə üzvləri;*
- *Rusiya Federasiyası ərazisində yerləşən ali təhsilin dövlət təhsili təşkilatında, dövlət peşə təhsili təşkilatında və ya dövlət elmi təşkilatında dövlət qeydiyyatına malik təhsil proqramları üzrə peşə təhsili almış və SSRİ-nin tərkibində olmuş dövətin vətəndaşı olan şəxsə;*
- *Rusiya Federasiyası ərazisində qaçqın kimi tanınan və ya müvəqqəti sığınacaq alan Ukrayna vətəndaşı olan və ya Ukrayna ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslər;*
- *Köçürülmə prosesinin tənzimlənməsi və köçürülmüş şəxslərin hüquqlarının müdafiəsi haqqında Rusiya Federasiyasının beynəlxalq müqavilələrinə uyğun olaraq daimi yaşamaq üçün Rusiya Federasiyasına köçənlər.*

## Daimi yaşama icazəsinin verildiyi hallar

Rusiya Federasiyası ərazisində daimi yaşamaq üçün icazə əcnəbiyə ölkə ərazisində daimi yaşamaq hüququ, ölkəyə giriş və ölkədən çıxış hüququ verən və eyni zamanda onun şəxsiyyətini təsdiq edən sənəddir. Daimi yaşamaq üçün icazə müddətsiz verilir (yüksək səviyyəli mütəxəsisə və onun ailə üzvlərinə verilən icazə istisna olmaqla). Daimi yaşamaq üçün icazənin alınması ilə bağlı ərizə əcnəbi tərəfindən Daxili İşlər üzrə Federal İcra Hakimiyyəti orqanın ərazi orqanına ümumi informasiya-telekommunikasiya şəbəkələri, İnternet şəbəkəsi və "Dövlət və Bələdiyyə Xidmətlərinin Vahid Portalı" da daxil olmaqla elektron formada da təqdim edilə bilər.

Daimi yaşamaq üçün icazə Rusiya Federasiyası ərazisində bir ildən az olmayaraq müvəqqəti yaşamaq üçün icazə əsasında yaşayan əcnəbiyə verilə bilər. Daimi yaşamaq üçün icazə ilə bağlı ərizə müvəqqəti yaşamaq üçün icazə əsasında Rusiya Federasiyasında yaşamağın birinci ilinin səkkiz ayından tez olmayaraq və müvəqqəti yaşamaq üçün icazə müddətinin bitməsindən dörd aydan gec olmayaraq verilir.

Müvəqqəti yaşamaq üçün icazə alınmadan daimi yaşamaq üçün icazə aşağıdakı əcnəbilərə verilir:

- *Rusiya Sovet Sosialist Federativ Respublikası (RSSFR) ərazisində doğulmuş və əvvəllər SSRİ vətəndaşı olmuş əcnəbiyə;*
- *valideyni (övladlığa götürən, himayəçi, qəyyum) xarici vətəndaş olan və Rusiya Federasiyası ərazisində daimi yaşayan 18 yaşına çatmamış əcnəbi;*
- *xarici vətəndaş olan valideyni (övladlığa götürəni, qəyyumu, himayəçisi) ilə birlikdə daimi yaşamaq üçün icazə alan 18 yaşına çatmamış əcnəbi;*
- *Rusiya Federasiyası vətəndaşı ilə nikahda olan və Rusiya Federasiyası ərazisinə daimi yaşayan valideyni, qızı və ya oğlu olan əcnəbi;*
- *xarici vətəndaş olan valideyni (övladlığa götürəni, qəyyumu, himayəçisi) ilə birlikdə daimi yaşamaq üçün icazə alan və xarici dövlətin qanunvericiliyi ilə əmək qabiliyyəti olmayan və ya məhdud əmək qabiliyyətli kimi tanınan 18 yaşına çatmış əcnəbi;*
- *valideyni (övladlığa götürəni, qəyyumu, himayəçisi) Rusiya Federasiyası ərazisində xarici vətəndaş kimi daimi yaşayan və xarici dövlətin qanunvericiliyi ilə əmək qabiliyyəti olmayan və ya məhdud əmək qabiliyyətli kimi tanınan 18 yaşına çatmış əcnəbi;*
- *31 may 2002-ci il tarixli 62-ФЗ saylı "Rusiya Federasiyasının vətəndaşlığı haqqında" Federal Qanununun 33.1-ci maddəsinə uyğun olaraq rus dili ana dili kimi tanınan əcnəbi;*
- *25 iyul 2002-ci il tarixli 115-ФЗ saylı "Rusiya Federasiyasındakı xarici vətəndaşların hüquqi vəziyyəti haqqında" Federal Qanunun 13.2-ci maddəsinə uyğun olaraq yüksək səviyyəli mütəxəssis və onun ailə üzvləri;*
- *Rusiya Federasiyasında ali təhsil müəssisəsinin dövlət qeydiyyatına alınmış programını əyani formada müvəffəqiyyətlə mənimsəmiş və təhsili və ixtisası barədə fərqlənmə diplomu almış əcnəbi;*
- *Rusiya Federasiyasında yaşayan və Rusiya Federasiyasının vətəndaşlığına xitam verilmiş şəxs;*
- *31 may 2002-ci il tarixli 62-ФЗ saylı "Rusiya Federasiyasının Vətəndaşlığı haqqında" Federal Qanununun 41.1-ci maddəsinin bir və ya üçüncü hissəsində göstərilmiş şəxs;*
- *Rusiya Federasiyası ərazisində yaşayan və barəsində Rusiya Federasiyası vətəndaşlığına qəbul edilməsi haqqında qərar ləğv edilmiş şəxs (Rusiya*

*Federasiyasının Cinayət Məcəlləsinin bir sıra maddələri ilə ləğv qərarı verilmiş şəxslər istisna olmaqla);*

- *özü və ya bir başa qohumu, övladlığa götürəni və ya əri (arvadı) Krım Muxtar Sovet Sosialist Respublikası ərazisindən qanunsuz çıxarılmağa məruz qalmış əcnəbi, həmçinin Rusiya Federasiyası daxili işlər orqanı, prokurorluğu və ya məhkəməsi tərəfindən reabilitasiya haqqında arayış təqdim edən həmin əcnəbinin bir başa qohumuna, övladlığa götürdüyü uşağa və ya ərinə (arvadına).*

Daimi yaşamaq üçün icazənin verilməsi ilə bağlı müraciətlərə baxılma müddəti icazənin alınması əsasına görə 15 iş günü, 2, 3 və ya 4 ay arasında dəyişir.

## Əmək fəaliyyəti ilə məşğul olmaq üçün bunları bilmək vacibdi

İşəgötürən və ya xidmət (iş) sifarişçisi əcnəbi işçinin cəlb edilməsi və istifadə edilməsinə dair icazəsi olduqda əcnəbini işə cəlb edə bilər. Əmək fəaliyyəti ilə 18 yaşına çatmış iş icazəsi və ya patenti olan əcnəbilər məşğul ola bilər. Bu qaydalar aşağıdakı əcnəbilərə şamil edilmir:

- *Rusiya Federasiyası ərazisində müvəqqəti və ya daimi yaşayanlara. Müvəqqəti yaşamaq üçün icazəsi olan əcnəbilər yalnız həmin icazəni aldığı regionda, daimi yaşamaq üçün icazəsi olan əcnəbilər isə Rusiya Federasiyası ərazisində əmək fəaliyyəti ilə məşğul ola bilərlər.*
- *xaricdə yaşayan soydaşların Rusiya Federasiyasına könüllü köçürülməsinə yardım üzrə Dövlət Proqramının iştirakçısı olanlar və onlarla birlikdə Rusiya Federasiyasına köçən ailə üzvlərinə;*
- *Rusiya Federasiyasındakı diplomatik nümayəndəliklərin, konsulluqların, beynəlxalq təşkilatların əməkdaşlarına, həmçinin onların şəxsi ev işçilərinə;*
- *Rusiya Federasiyasının peşəkar təhsil mərkəzlərində və ali təhsil müəssisələrində təhsil alan və tətil müddətində işləyənlərə;*
- *Rusiya Federasiyasında akkreditasiya olunmuş jurnalistlərə;*
- *Rusiya Federasiyası ərazisində qaçqın kimi tanınan şəxslərə;*
- *Rusiya Federasiyası ərazisində müvəqqəti sığınacaq alan şəxslərə;*
- *"Rusiya Federasiyasında xarici vətəndaşların hüquqi statusu haqqında" 25.07.2002 N 115-ФЗ Federal Qanunun (15.10.2020 tarixində dəyişiklik edilmiş) 13-cü maddəsində göstərilmiş digər şəxslərə.*

### Əmək patenti

Patent Rusiya Federasiyasında əcnəbinin əmək fəaliyyəti ilə məşğul olması üçün tələb olunan sənəddir. Əmək patenti Rusiya Federasiyası ərazisinə viza tələb olunmayan qaydada gələn, müvəqqəti və ya daimi yaşamaq üçün icazəsi olmayan şəxslərə verilir. Viza tələb olunan qaydada gələn əcnəbilər isə əmək fəaliyyəti ilə məşğul olmaq üçün iş icazəsi almalıdır.

Azərbaycan Respublikası vətəndaşları Rusiya Federasiyasına viza tələb olunmayan qaydada səfər etdikləri üçün onlar əmək fəaliyyəti ilə məşğul olmaq üçün patent almalıdırlar. Belə ki, patentin alınması üçün Rusiya Federasiyası ərazisinə daxil olarkən miqrasiya kartında ölkəyə gəliş məqsədi ***"əmək fəaliyyəti"*** göstərilməlidir. Patent almaq üçün bir əcnəbi patent imtahanlarından keçməli və dövlət imtahanından

keçmə sertifikatı almalıdır. Bunun üçün əcnəbi rus dili, Rusiya tarixi və Rusiya Federasiyası qanunvericiliyinin əsasları üzrə imtahanlardan uğurla keçməlidir. Əcnəbi Rusiya Federasiyası ərazisinə daxil olduğu tarixdən 30 gün ərzində patentin rəsmiləşdirilməsi üçün Daxili İşlər üzrə Federal icra hakimiyyəti orqanına müraciət edilməlidir. Patentin rəsmiləşdirilməsi üçün müraciət 30 gündən gec edildiyi təqdirdə imtinaya əsas olmasa da inzibati qaydada 10 min rubldan 15 min rubladək cərimə *(Rusiya Federasiyası İnzibati Xətalar Məcəlləsinin 18.20-ci maddəsi)* olunur. Patent bütün tələb edilən sənədlərin miqrasiya orqanına təqdim edildiyi tarixdən 10 iş günü ərzində baxılaraq müraciətdən imtina və ya patentin verilməsinə dair qərar qəbul edilir.

Patentin etibarlılıq müddəti 1 aydan 12 ayadəkdir və *"Rusiya Federasiyasında xarici vətəndaşların hüquqi statusu haqqında" 25.07.2002 N 115-ФЗ Federal Qanunun* 13.3-cü maddəsinə əsasən etibarlılıq müddəti əcnəbinin patenti faktiki olaraq aldığı tarixdən başlayır.

Rusiya Federasiyası ərazisində müvəqqəti yaşayan əcnəbi və onu işə cəlb edən şəxs iş icazəsi və ya patent verildiyi ərazi vahidindən kənarda, həmçinin iş icazəsində göstərilmiş peşədən başqa peşədə əmək fəaliyyəti ilə məşğul ola bilməz. Əcnəbi başqa bir regiona köçdükdə yeni patentin rəsmiləşdirilməsi üçün Rusiya Daxili İşlər Nazirliyinin Miqrasiya məsələləri üzrə Baş İdarəsinin ərazi bölmələrinə müraciət etməlidir. Patentin etibarlılığı müddətində əcnəbinin adı, soyadı, şəxsiyyətini təsdiq edən sənədlərin rekvizitləri dəyişdikdə ***7 iş günü*** ərzində aidiyyəti üzrə müraciət etməlidir.

Patentin müddəti uzadılmadığı təqdirdə əcnəbi Rusiya Federasiyası ərazisini patentin etibarlılıq müddətinin bitdiyi tarixdən ***15 gün ərzində*** tərk etməlidir. (Ətraflı)

## Vətəndaşlığın əldə edilməsi

Rusiya Federasiyası vətəndaşlığının əldə edilməsi və ləğv edilməsinin əsasları, şərtləri və qaydası 31 may 2002-ci il tarixli 62-ФЗ saylı "Rusiya Federasiyasının Vətəndaşlığı haqqında" Federal Qanunu, Rusiya Federasiyası Prezidentinin 14 Noyabr Fərmanı ilə təsdiq edilmiş “Rusiya Federasiyasının vətəndaşlıq məsələlərinə baxılması qaydası”, həmçinin "Rusiya Federasiyasının vətəndaşlığına qəbul üçün sadələşdirilmiş qaydada müraciət etmək hüququ olan şəxslərin kateqoriyalarının humanitar məqsədlər üçün müəyyən edilməsi haqqında" Rusiya Federasiyası Prezidentinin 24 aprel 2019-cu il tarixli 183 nömrəli və "Rusiya Federasiyası vətəndaşlığına qəbul üçün sadələşdirilmiş qaydada müraciət etmək hüququ olan bəzi xarici vətəndaşlar və vətəndaşlığı olmayan şəxslər haqqında" Rusiya Federasiyası Prezidentinin 29 aprel 2019-cu il tarixli, 187 nömrəli fərmanları ilə tənzimlənir.

Rusiya Federasiyasının vətəndaşlığı aşağıdakı yollarla əldə edilir:

- *Doğum;*
- *Rusiya Federasiyasının vətəndaşlığının əldə edilməsi;*
- *Rusiya Federasiyası vətəndaşlığına bərpa edilmə;*

- *62-ФЗ saylı Federal Qanununda və ya Rusiya Federasiyasının qoşulduğu beynəlxalq müqavilələrində nəzərdə tutulmuş digər əsaslarla.*

Rusiya Federasiyası vətəndaşlığına qəbul ümumi və sadələşdirilmiş qaydada aparılır. Rusiya Federasiyası vətəndaşlığına ümumi qəbulla bağlı ərizələr 1 il müddətinədək, sadələşdirilmiş qaydada isə 3 ayadək müddətə baxılır. Ümumi qaydada Rusiya Federasiyasının vətəndaşlığına qəbulla bağlı qərar Rusiya Federasiyası Prezidenti, sadələşdirilmiş qaydada isə regional səviyyədə Rusiya Daxili İşlər Nazirliyinin ərazi orqanın rəhbəri tərəfindən qəbul edilir.

Rusiya vətəndaşlığına ümumi qaydada qəbul şərtləri 62-ФЗ saylı Federal Qanunun 13-cü maddəsi ilə müəyyən edilir. Ən əsas şərtlərdən biri Rusiya Federasiyası ərazisində fasiləsiz olaraq daimi yaşamaq üçün icazə əsasında 5 il müddətinə yaşamaqdır. Bəzi əcnəbi kateqoriyaları üçün həmin müddət 1 ilə qədər azaldıla və ya tətbiq edilməyə bilər. Belə ki, 62-ФЗ saylı Federal Qanununun 37-ci maddəsinə əsasən, Rusiya Federasiyasının vətəndaşlığı:

- *62-ФЗ saylı Federal Qanununun 12-ci maddəsinə uyğun olaraq uşağın doğulduğu gündən;*
- *62-ФЗ saylı Federal Qanununun 26-cı maddəsinin ikinci və dördüncü hissələrinə uyğun olaraq uşağın övladlığa götürüldüyü gündən;*
- *digər hallarda - 62-ФЗ saylı Federal Qanununda və Prezidentinin fərmanlarında başqa hal nəzərdə tutulmayıbsa, şəxs 62-ФЗ saylı Federal Qanununun 11.1-ci maddəsinə uyğun olaraq Rusiya Federasiyası vətəndaşı andı içdiyi gündən əldə edilir.*

Rusiya Federasiyasının vətəndaşlığına sadələşdirilmiş qaydada "Rusiya vətəndaşılığı haqqında" 31 May 2002-ci il tarixli 62-ФЗ saylı Federal Qanununun 14-cü maddəsində göstərilmiş şəxslər kateqoriyası üçün müəyyən edilmiş şərtlər və əsaslar olduqda qəbul edilir. Eyni zamanda, həmin şəxslər üçün Rusiya Federasiyası ərazisində daimi yaşamaq müddəti tələbi mövcud deyil. Aşağıdakı şəxslər sadələşdirilmiş qaydada Rusiya Federasiyasının vətəndaşlığına qəbul edilə bilərlər:

- *SSRİ vətəndaşı olmuş, SSRİ-nin tərkibinə daxil olmuş dövlətlərdən birində yaşamış və ya yaşayan və həmin ölkələrin vətəndaşlığını əldə etməyən şəxslər;*
- *RSSFR ərazisində doğulmuş və əvvəllər SSRİ vətəndaşı olmuş şəxs;*
- *Rusiya Federasiyası ərazisində yaşayan Rusiya Federasiyası vətəndaşı ilə 3 ildən az olmayaraq nikahda olan şəxs;*
- *Rusiya Federasiyası vətəndaşı əmək qabiliyyətli 18 yaşına çatmış övladı olan şəxs;*
- *ən azı bir valideyni Rusiya Federasiyası ərazisində yaşayan Rusiya Federasiyası vətəndaşı olan şəxs;*
- *Belarus, Qazaxstan, Moldova Respublikalarının və Ukrayna vətəndaşı olan şəxs;*
- *62-ФЗ nömrəli Federal Qanunun 33.1-ci maddəsi ilə rus dili daşıyıcısı kimi tanınan şəxs;*
- *Rusiya Federasiyası ərazisində yaşayan Rusiya Federasiyası vətəndaşı ilə evli olub və bu nikahdan ümumi övladları olan şəxs;*

- *SSRİ-nin tərkibinə daxil olan dövlətlərdən Rusiya Federasiyasına gəlmiş və 1 iyul 2002-ci il tarixindən etibarən Rusiya Federasiyasında yaşayış yerlərində qeydiyyata alınmış əlillər;*
- *keçmiş SSRİ vətəndaşı olub Rusiya Federasiyası ərazisində yaşayan Böyük Vətən Müharibəsi veteranı;*
- *62-ФЗ saylı Federal Qanunun 14-cü maddəsində göstərilmiş digər şəxslər.*

## İnzibati məsuliyyət

Rusiya Federasiyasının İnzibati Xətalar Məcəlləsinin (RF İXM) 1-ci hissəsinin 2.6-cı maddəsinə əsasən Rusiya Federasiyası ərazisində inzibati xəta törətmiş əcnəbilər, vətəndaşlığı olmayan şəxslər və xarici hüquqi şəxslər ümumi əsaslarla inzibati məsuliyyətə cəlb olunurlar.

Miqrasiya sahəsində ən geniş yayılmış qanun pozuntuları bunlardır:

- *Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs tərəfindən Rusiya Federasiyasına giriş qaydalarının və ya Rusiya Federasiyasında qalma (yaşayış) rejiminin pozulmasına görə - Rusiya Federasiyası hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla və ya çıxarılmamaqla 2000 rubldan 5000 rubladək cərimə;*
- *Əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin Rusiya Federasiyasında qalma qaydalarının pozulmasına görə - vəzifəli şəxslərə 40 min rubldan 50 min rubladək; hüquqi şəxslərə 400 min rubldan 500 min rubladək cərimə;*
- *əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin Rusiya Federasiyası ərazisində qanunsuz əmək fəaliyyəti ilə məşğul olmasına görə - Rusiya Federasiyası hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla və ya çıxarılmamaqla 2000 rubldan 5000 rubladək cərimə;*
- *immiqrasiya qaydalarının pozulmasına görə - Rusiya Federasiyası hüdudlarından kənara inzibati qaydada çıxarılmaqla və ya çıxarılmamaqla 2000 rubldan 5000 rubladək cərimə;*
- *patent almaq üçün müraciət müddətinin pozulmasına görə - 10 min rubldan 15 min rubladək inzibati qaydada cərimə.*

Həmin qanun pozuntuları təkrar törədilərsə, məhkəmə Rusiya Federasiyası ərazisindən inzibati qaydada çıxarılma haqqında qərar qəbul edə bilər.

Rusiya Federasiyası ərazisində miqrasiya qanunvericiliyinin pozulması ilə bağlı tətbiq edilən inzibati tənbeh tədbirləri Rusiya Federasiyasının İnzibati Xətalar Məcəlləsinin 18-ci maddəsində qeyd edilmişdir.

İnzibati qaydada kənara çıxarma haqqında qərarın qəbul edilməsi rayon məhkəmələrinin hakimlərinin, inzibati xəta Rusiya Federasiyası ərazisinə daxil olarkən törədilərsə sərhəd orqanlarının vəzifəli şəxslərinin səlahiyyətlərindədir.

Rusiya Federasiyası sərhədlərindən inzibati qaydada kənara çıxarma narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsi və istehlakı ilə əlaqədar inzibati xətaların törədilməsinə və Rusiya Federasiyasının readmissiya haqqında beynəlxalq müqavilələrinin icrası ilə bağlı məcburi qaydalarının

readmissiya olunan əcnəbi və vətəndaşlığı olmayan şəxs tərəfindən pozulmasına görə məcburi əlavə cəza tədbiri kimi tətbiq edilir.

Eyni zamanda, Rusiya Federasiyası sərhədlərindən inzibati qaydada kənara çıxarma əvvəllər Rusiya Federasiyası ərazisini müstəqil tərk etmə şəklində təyin edilən inzibati qaydada kənaraçıxarma tənbeh tədbirinin əcnəbi və ya vətəndaşlığı olmayan şəxs tərəfindən yerinə yetirilməsindən boyun qaçırmasına görə məcburi əlavə cəza tədbiri kimi tətbiq edilir. Rusiya Federasiyası ərazisindən müstəqil tərk etmə yolu ilə kənaraçıxarma Rusiya Federasiyası Daxili İşlər Nazirliyinin müvafiq bildirişi əsasında əcnəbinin hesabına mümkündür.

Əcnəbinin şəxsiyyətini təsdiq edən sənədlər və ya miqrasiya uçotuna (qeydiyyatına) alınması haqqında bildirişi olmadıqda, yaxud qanun pozuntusu təkrar törədildikdə məhkəmə şəxsin Əcnəbilərin Müvəqqəti Saxlama Mərkəzinə yerləşdirilməsi haqqında qərar çıxara bilər. Bu halda kənaraçıxarılma həm dövlətin, həm də əcnəbinin özünün hesabına ola bilər.

Miqrasiya qanunvericiliyi ilə bağlı daha ətraflı məlumat üçün Rusiya Federasiyasının Daxili İşlər Nazirliyinin (www.мвд.рф) və Rusiya Federasiyasının Daxili İşlər Nazirliyinin Miqrasiya məsələləri üzrə Baş İdarəsinin (https://ufms-gov.ru) rəsmi vebsəhifələrinə müraciət edə bilərsiniz.